**Bərdədə fəaliyyət göstərən kafedə aşkarlanmış nöqsanlara dair məlumat**

**(8 aprel 2025)**

Nəzarət tədbirləri çərçivəsində Bərdə rayonu, Bəcirəvan kəndində fəaliyyət göstərən, fiziki şəxs Abdullayev Musa Abdulla oğluna məxsus "Əli Kənan" kafesində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən yoxlama keçirilib.

Baxış zamanı baytarlıq arayışı olmayan ət məhsulları, mənşə sənədləri olmayan digər qida məhsulları aşkarlanıb. Həmçinin soyuducuda mal qonşuluğu prinsipinin pozulduğu, döşəmə və divar səthlərinin təmirsiz olduğu və asan təmizlənə bilən materialla üzlənmədiyi, müvafiq təmizlik işlərinin görülmədiyi, işçilərin dövri tibbi müayinədən keçmədiyi və digər nöqsanlar müəyyən edilib.

Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.